# ÖYRƏNMƏYƏ HAZIRLIQ VƏ MÜKAFAT MÜƏYYƏN ETMƏK



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
"Autizm portalı"
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# ÖYRƏNMƏYƏ HAZIRLIQ VƏ MÜKAFAT MÜƏYYƏN ETMƏK

Hər birimiz həyatımızda tərif aldığımız unudulmaz anları xatırlayırıq. Məsələn məktəb səhnələrində aldığınız alqışlar, imtahan nəticələrinizin müsbət olması və ya bişirdiyiniz hər hansısa bir yeməyin bəyənilməsi və s. Bir dəfə tərif aldığınızda bunu davam etdirmək istədiyinizi də bəlkə kəşf etmisiniz. Daha yaxşı nəticə göstərmək, daha yaxşı çalışmaq ,hətta daha yaxşı balıq tutmaq istəmisinizdir. Bir sözlə ifadə etsək, aldığınız tariflər qərarlığınızı dəstəkləmiş və irəliləyən zamanlarda daha yaxşı vərdişlərinizin artmasına səbəb olmuşdur. Gördüyünüz işdən asılı omayaraq aldığınız tərif (maaş , alqış və s.) sizi daha yaxşısını etməyə təşvik etmişdir. Maaşımız ödəndiyi üçün işləyirik, müştərinin  üzünü güldürmək nəzakətli oluruq, başqasına kömək etmək bizi yaxşı hiss etdiridiyi üçün könüllü olaraq bunu edirik.

Bu mövzuda uşaqlar (inkişaf geriliyi göstərən uşaqlar da daxil olmaqla) bizdən fərqli deyillər. Davranışları üçün mükafatlandırıldıqları zaman müsbət reaksiya göstərirlər. Bu mükafatlara möhkəmləndirici (motivasiyaedici) deyilir və bəlkə də bunlar autizmli övladınızın öyrənməsində dəstək olacaq ən güclü vasitədir. Bunun üçün ən başından uşağını təşvik edəcək ən təsirli mükafatları müəyyənləşdirməyiniz vacibdir.



# MÜKAFAT MÜƏYYƏN ETMƏK

Mükafatlar uşaqdan uşağa fərqlilik göstərdiyini və bunun zamanla dəyişə biləcəyini nəzərə alaraq hazırladığımız mükafat siyahısının çox çeşitli və fərqli olmasına diqqət etməliyik. Misal üçün bəzi uşaqlar portağal suyu sevdiyi halda bəziləri sevməz. Bəzi uşaqlar rəngbərəng stickerlərə və simvol sisteminə müsbət reaksiya verdiyi halda, digərləri müsbət davranışın ardından verilən mükafata müsbət reaskiya verirlər. Ya da bəzi uşaqlar danlanmağı və ya fasiləni mükafat olaraq qəbul edə bilirlər.

Əslində barmağınızla "əla" işarəsi göstərmək , hətta gülümsəmək belə mükafat rolunu oynaya bilər. Öyrənmə əsnasında hər kəs möhkəmləndirmə qaydalarını istifadə etsə, həm böyüklər , həm də uşaqlar daha xoşbəxt və məhsuldar ola bilərlər. Uşaqlar müsbət davranışlarının qarşılığını almayanda, diqqət çəkmək üçün müsbət olmayan davranışlar sərgiləyirlər. Tipik inkişaf göstərən uşaqlarla müqayisədə atipik uşaqlar qaydalarını yerinə yetirməkdə və müsbət davranışları möhkəmləndirmək üçün tərif və mükafata daha çox ehtiyac edirlər.

Motivasiya sistemini inkişaf etdirmək asan görünə bilər, əslində tətbiqi ən çətin sistemlərdən biridir, çünki uşaqlar ehtiyaclarına bağlı olaraq fərqli mükafatlara ehtiyac hiss edə bilərlər. Övladınız krekeri nə qədər çox sevsə də, onu əldə etdikdən sonra artıq kreker onun üçün mükafat rolunu oynamayacaq. Çünki kreker təsirli bir motivasiya vasitəsi olmaqdan çıxacaq. Bir uşağı ən sevdiyi mükafatdan məhrum etməyimiz bəzən faydalı ola bilər , lakin burdaki həssas balansı gözləmək vacibdir. Məhrum edərək mükafatın dəyərini artıra bilərsiniz, amma belə situasiyada uşaq mükafat olaraq  alacağı TV programını qarşılığında daha çox çalışdığını hiss edə bilər. Mükafatla əlaqələndirildiyində, əgər uşağın gördüyü iş çətindirsə, bunu qarşılığında aldığı mükafata dəyməyəcəyini düşünə bilər. Bəzi dönəmlərdə uşaqlar bir qidanı, fəaliyyəti və ya kitabı çox sevə bilərlər, amma sonradan bunların heç birini istəməyə bilərlər. Bu vəziyyət bütün uşaqlarda oxşardır.



Mükafatları təyin etmək bu təlimin ən çətin hissədir. Lakin bu kitabı oxuduqdan sonra bu iş sizin üçün asan olacaq.

# TƏSİRLİ MÜKAFATLARI TƏYİN ETMƏK



Təlim prossesində daha asan kontrol edə biləcəyiniz mükafatlar seçməlisiniz. Məsələn uşağın sevdiyi oyuncaq başlanğıcda təsirli mükafat kimi məqsədə uyğun olmaya bilər , çünki mükafat müddəti bitdiyində övladınızdan oyuncağı geri almaq asan olmayacaqdır. Digər tərəfdən krekerlər kiçik hissələrə ayrılaraq tək səfərdə verilə bilər. Stəkandan (pipetlə) içilən meyvə suyu, hissə-hissə verilən şəkər parçaları asan idarə olunan mükafatlara misal ola bilər. Qazandığı meyvə suyu və ya şokoladı bitirən uşaq qaldığı yerdən davam edib, çalışdıqca daha çox mükafat qazana bilər. Valideynlər və mütəxəssislər qidalardan ibarət olan mükafatları təqdir etməsələr də, bu mükafatlar ən effektiv mükafat hesab olunur. Çünki bəziləri bunu heyvan əhliləşdirməkdən bir fərqi olmadığını düşünürlər, bəziləri də kiçik davranışlar üçün bu şəkildə olan mükafatları əhəmiyyətsiz görürlər. Bununla yanaşı, autizmli uşaqlarda yemə pozuntusuna bağlı olaraq artıq çəki və ya əksi müşahidə olunur. Ayrıca , bu uşaqlar qidalanmada çox seçici davranırlar. Uşaqların gün ərzində yüksək miqdarda şəkərli qidalarla qidalanması diş və kilo probleminə səbəbiyyət verdiyi üçün valideynlərin narahatlığını daha da artırır. Buna baxmayaraq, müqayisədə qida mükafatlarına uşaqların verdiyi reaksiya sosial tərifə verdikləri reaksiyadan daha təsirlidir. Bütün bunları nəzərə alaraq, qida mükafatlarından program müddətində mütəmadi olaraq istifadə edilir. Qida mükafatlarının istifadəsində bunlar nəzərə alınmalıdır :parçalar kiçik ölçüdə verlməlidir ki, mütəmadi verilsə də ,yediyi miqdar çox olmasın. Su və meyvə suyu kimi qidalardan da mükafat olaraq istifadə oluna bilər. Ümumilikdə sevilən içkilər və qidalar övladınızın istəyini qarşısındakına çatdırmaq üçün ilkin vasitələr olacaq.

# MÜKAFAT OLARAQ VİDEODAN İSTİFADƏ ETMƏK



Əlbəttə ki övladınızın təhsilini dəstəkləmək üçün asan idarə olunan başqa mükafatlar da vardır. Bunların içərisində ən təsirli və çox istifadə olunan videolardır. Uşaqların əksəriyyəti planşetdə, komputerdə və telefonlarda video izləməyi çox sevir. Mükafatların fərqliliyi və təsirliliyi sizdə fikir qarışıqlığına səbəb ola bilər. Bunu bir daha qeyd etməkdə fayda varki, bu program uşağınızın öyrənməsini hər tərəfli şəkildə dəstəkləyəcəkdir. Qida mükafatlarında olduğu kimi televiziya və video mükafatları qısa müddətli verilir məsələn, bir neçə dəqiqəlik səmərəli çalışmanın nəticəsində övladınız ən sevdiyi videonu 30 saniyə izləyə bilər. Bütün bunları nəzərə alaraq çalışma masanızda video izlədə biləcəyiniz planşet, komputer və ya telefon olması məqsədəuyğundur. Əgər belə bir seçiminiz yoxdursa, çalışma masanızı ola bildiyi qədər televizora yaxın yerləşdirməlisiniz. Hər iki halda televizoru tez yandırıb söndürə bilməyiniz üçün pulta ehtiyacınız olacaqdır. İlk başlarda video mükafatlarındakı müddətlə , qida mükafatlarında olan miqdarın doğru olmaması sizi narahat edə bilər. Təlim əsnasında motivasiyaedici ilə ən yaxşı fomrada necə irəliləyəcəyinizi bu kitabdan öyrənəcəksiniz, amma indi övladınızın nəyə reaksiya verdiyini öyrənməyə başlayaq.

Videolu mükafatı düzgün təyin etməyin birinci mərhələsi övladınızı müşahidə etməkdir, məsələn övladınız videonun hansı hissəsini sevir, dəfələrlə izləmək istədiyi hissələr varsa bunları qeyd etməliniz.





## MÜKAFATLARI SEÇƏRKƏN ÖZÜNÜ STİMULLAŞDIRAN VƏ YA PROBLEM DAVRANIŞLARI DƏYƏRLƏNDİRMƏ

Mükafatları seçərkən özünü stimullaşdıran və ya problem davranışları dəyərləndirmə Son olaraq övladınız üçün ən effektiv mükafatı uşağınızın özünü stimullaşdıran və ya problem davranışına əsasən təyin etməlisiniz. Övladınız rəngli karandaşlar boyalarla divar və masaları rəngləyirsə, mükafat olaraq kağız, boya və ya rahat silinə bilən yazı lövhəsi düşünə bilərsiniz. Əgər övladınız barmaqlarıyla gözünün önündə oynayırsa, əlavə vizual stimullaşdırıcıya ehtiyac hiss edir, belə halda işıqlı fırlanan bir oyuncağı mükafat olaraq düşünə bilərsiniz. Davamlı öz ətrafında fırlanan uşaqlar dönən oyuncaqlarla oynamağa meylli olurlar. Belə hallarda bu cür oyuncaqları mükafat siyahısınıza əlavə edə bilərsiniz.

# MÜKAFAT MÜƏYYƏN ETMƏYİ NƏTİCƏLƏNDİRMƏK



İndi isə sıra potensial mükafatları bir neçə kateqoriyada ayırmaqdadır. Övladınızın sevdiyi bütün qida mükafatlarını bir sütun şəklində yazın. Ardından başqa bir sütunda ən sevdiyi videoları sıralayın, videolardan ən sevdiyi hissələri qeyd etməyi unutmayın. Daha sonra masada istifadə edə biləcəyiniz mükafatlar üçün bir siyahı hazırlayın. Siyahınıza köpük, işıqlı fırlanan bir oyuncaq və ya uşağınızı qıdıqlamaq üçün hansısa bir əşya əlavə edə bilərsiniz. Dördüncü sütunda isə fiziki hərəkətli və masadan kənar fəaliyyətləri sıralayın. Bunlar uşağı pilates topunun üstündə sevdiyi hərəkətləri etmək, yelləncəkdə yellənmək, övladınızı diziniz üzərində tutmaq, başı aşağı çevirmək və ya stulda qısa bir şəkildə sallamaq ola bilər.

Bəzi uşaqlar üçün mükafat anketi, gözləmi və dəyərləndirilməsinin edilməsi mütləqdir. Uşaqla çalışan insan dayəsi deyilsə, valideyn qısa bir mükafat anketi doldurmalıdır. Fəaliyyət programı təyin etməzdən əvvəl uşaqla işləyəcək mütəxəssis bir müddət uşağı gözləmləmək məcburiyyətindədir. Bu gözləm uşağa uzatdığımız şəkəri alıb-almayacağına baxmaq qədər asan tətbiqlər ola bilər və ya uşağa bir paket cips verilir və nə qədər müddətdə bitirdi qeyd olunur.

Qeydlərinizi yazarkən uşağın özünə məxsus xüsusiyyətləri daxil etməyiniz çox önəmlidir. Çünki autizmli uşaqlar yeməkdə seçicidirlər və hər zaman sevdikləri markaları olmasını tələb edirlər. Mükafat uşağa öz istədiyi şəkildə təqdim olunduğundan əmin olmaq lazımdır. Ümumiyyətlə uşağınız əgər  bir neçə mütəxəssislə çalışırsa, mükafatlar haqqında ona detallı məlumat verməlisiniz. Əgər övladınız mükafatı ağlayaraq, qışqıraraq  geri çevirirsə, bu mükafatın və təqdim olunma şəklinin doğru olub-olmadığından əmin olun. Mükafat müəyyən etməyi dəyərləndirməyin digər yolu isə potensial mükafatları masanın üzərinə yerləşdirmək və uşağın hansını seçəcəyini və nə qədər müddətdə oynayacağını müşahidə etməkdir, qidalar üçün isə ən birinci hansını bitirəcəyinə baxılır.

Mükafat müəyyən etməyi nəticələndirməyə əlavə olaraq çox fərqli oyuncağı, fəaliyyəti bir otağa və ya bir masaya qoyaraq övladınızın bunlardan hansıyla maraqlandığını müşahidə edə bilərsiniz. Övladınızın seçimlərinə müdaxilə etmədən seçimdən sonrakı mərhələyə daxil olaraq qeyd edin. Misal olaraq övladınız Həmzə yellənir və sevincli görünür ,sonra siz ona yaxınlaşın və onu yelləncəkdə yellədin.Verdiyi reaksiyanı qeyd edin. Fəaliyyətə qatıldığınız zaman sizinlə birlikdə daha çox əyləndi yoxsa siz qatılana qədər? Övladınız kitaba baxırsa siz də ona kitabdan bir neçə şey danışmağa başlayın və övladınız üçün fəaliyyətin hansı hissəsinin mükafat olacağına qərar verməyə çalışın. Məsələn kitabın səhifələrini çevirmək yoxsa kitabla əlaqə qurmaq? Əgər kitabla tək başına məşğul olmaq istəyirsə başlanğıc nöqtəsiniz orasıdır.

# ÖVLADINIZIN YAŞINA UYĞUN MÜKAFAT MÜƏYYƏN ETMƏK



Övladınız yaşına uyğun olmayan mükafatlara diqqət göstərirsə, təşvişə düşməyin.10 yaşında olan bir uşaq bağça yaşında uşaqlar üçün uyğun videolara maraq göstərə bilər, ya da 5 yaşlı bir qız , 18 aylıq uşaq üçün olan oyuncağa maraq göstərə bilər. Öncə uşağın xronoloji yaşına deyil də, fiziki yaşına baxın. Əgər 10 yaşındakı uşağınız 2 yaşındakı bir uşağın nitq qabiliyyətinə sahibdirsə, kiçik yaşlı uşaqların izlədiyi videolar sizi təəccübləndirməməlidir. Bu videolar başlanğıcda istifadə edə biləcəyiniz mükafatdır, övladınız bacarıq və güvən qazandıqca siz onu yaşına uyğun mükafatlara yönləndirə bilərsiniz. İlk başlarda mükafat çeşitləriniz məhdud ola bilər, ancaq zamanla mükafatın çeşidliyi artacaqdır. Müəyyən etdiyiniz mükafatlarla övladınız arasında sərhəd qoymasanız, bir müddətdən sonra mükafata qarşı doyğunluq yaranacağı üçün mükafat öz təsirini



itirəcəkdir. Sonraki yeni mərhələdə mükafatları seçdikdən sonra bu mükafatlara əldə etmə sərhəddi qoyduğunuzdan əmin olmalısınız. Təlim sırasında uşağın mükafatları müəyyən qablarda, çantada və ya rəflərdə olmalıdır.Uşaq mükafata birinin dəstəyi olmadan çatmamalıdır. Bu mərhələ uşağa yetkin biriylə ünsiyyət qurmağa məcbur edər və ehtiyac hiss etdirər.

# ÖYRƏNMƏ MÜHİTİNİ MÜKAFATLA UYĞUNLAŞDIRIN

Mükafatları uyğunlaşdırmaq növbəti addımdır. Əyani olaraq, mühit , insan və əşyalarla, uşağın hal hazırdakı mükafatlarını uyğunlaşdırmaq müddətidir. Siz artıq əvvəlki mərhələdə , övladınızın mükafatını müəyyənləşdirdiniz və onları ancaq sizin nəzarətinizdə övladınızın əldə edə biləcəyi yerlərə yerləşdiridiniz. Uyğunlaşdırma davam edən müddətdir, bir neçə gün və ya həftədə tamamlanacaq period deyil. Mütəxəsislər uyğunlaşdırma müddətinin bir həftə davam edəcəyi mövzusunda həmfikir olsalar belə, təyin etdikləri müddət  işləmək üçün məhsuldar deyil.

Eyniləşdirməni, uşaqla işləyən hər bir baxıcı və ya mütəxəsis zamana yayacaq şəkildə müəyyənləşdirməlidir. Eyniləşdirmə mükafatı , tədris müddətində ən önəmli ehtiyaclardandır. Valideyn olaraq övladınızın tədrisində rol aldığınız zaman, uyğunlaşdırma mükafatınının əhəmiyyətini unutmamalısınız. Bütün bunlardan yola çıxaraq, bu vaxta qədər öyrəndiklərimiz , evimizdə terapiya mühitini  yaratmaq üçün doğru zaman olduğunu göstərir. Terapiya mühitini yaratmağa , evinizin bir küncünə qoyacağınız bir stol qədər balaca sahədən və yaxud evin hər hansı bir otağını istifadə edərək başlaya bilərsiniz. İşin sirri, öğrənmə mühitini mükafatlara əsasən eyniləşdirməkdir.



Terapiya mühitinin əsas xüsusiyyəti, övladınızın “getmək istəyəcəyi “yer olmasıdır , mühiti yaradacağınız zaman , bu detala diqqət etməlisiniz. Çalışmaq üçün stola “can atan”, şəkilli kartları və digər materialları gördüyü zaman həyəcanlanan , istifadə etdiyi zaman xoşbəxt hiss edən uşaqla qarşılaşmaq sizə xəyal kimi gəlir? Lakin bütün sadaladıqlarımız xəyal deyil. Hər akademik proqramın məqsədi uşağın xoşbəxt və həvəsli olmağıdır. Sizdə valideyn olaraq ev mühitində bu məsələyə nəzarət etməlisiniz. Övladınız o mühitdə olmağı arzu etməsi sizin ən böyük səyiniz olmalıdır.

Necə ki, arzuolunan mühiti əmələ gətirməyiniz göstəricilərdən aydın olursa, əksi bir vəziyyətdə işlərin yolunda getmədiyi yenə də göstəricilərdən məlum olacaq. Misal, terapistiniz qapını zəngini çaldığında , övladınız ağlayaraq  qaçırsa , terapisti necə dərk etdiyini yenidən analiz etməlisiniz. Və ya övladınız məktəbə getməkdən imtina edərsə, məktəbin mükafatlarla uyğunlaşmadığını düşünməlisiniz. Belə hallarda , başdan başlayaraq , mükafatla müəllimi və mühiti uyğunlaşdırmaq üçün başqa həll yolları axtarmalısınız.

# ÖZÜNÜNÜZÜ MÜKAFATLARLA UYĞUNLAŞDIRIN

Təyin etdiyiniz mükafatlarla özünüzü (və ya övladınızla kim çalışacaqsa) eyni zamanda öyrənmə mühitini və materiallarını əlaqələndirməlisiniz. Biz buna “ uyğunlaşdırma” deyirik , əslində bu period sadə və əyləncəlidir. Valideynin əlinin altında bir neçə effektiv mükafat hazır olmalıdır , övladına yönləndirərək hər hansı bir şey tələb etmədən onu mükafatlandırmalıdır. İlkin mərhələdə ,( övladınız müəllimə və ya terapistə qarşı mənfi hisslər bəsləyirsə) mükafatı onlardan almaya bilər. Belə halda uşağın yanına cips qoyulmalı və ya televizoru açaraq yanından ayrılmalıyıq. Beləliklə uşaq tək qalaraq cipsi yeyər və ya televizor izləyər. Növbəti mərhələdə müəllim addım-addım və daha da artacaq şəkildə uşağın yanında mükafatı almasının üzərində işləməlidir. Şəxsi qəbul etmədən, bəzi uşaqlarla bu istiqamətdə digər uşaqlardan daha çox işləmək lazımdır. Bundan sadəcə uşağın güvənini qazanmaq üçün, daha çox və daha yavaş çalışacağınızı başa düşməlisiniz. Əgər uşaq sizdən mükafatı alırsa , sadəcə mükafatı verməklə başlayın və tamamilə səssiz qalın. Mükafatı sizdən problemsiz , tez bir şəkildə qəbul edirsə, etiketləmə edərək səsənizi əşyanın təqdimatıyla uyğunlaşdırmağa başlayın. Yəni , mükafatı verərkən “cips cips”... Bax , Həmzə, bir cips” deyin. Sizin ona yanaşmağınıza və mükafatı təqdim etməyinizə , uşaq tolerantlıq göstərənə qədər eyni şəkildə davranmağa davam edin. Rahat bir səviyyəyə gəldikdən sonra , bir sonrakı mərhələ, mükafatları siz yanında olduğunuz zaman çalışma stolunun üzərinə yerləşdirib uşağın stola yaxınlaşıb yaxınlaşmayacağını görməkdir. Yaxınlaşan kimi , heç bir tələb olmadan mükafatı uşağa verin. Bu mərhələdə uşaq hər hansı bir şey deyib , qeyd etmək məcburiyyətində deyil.

Zaman keçdikcə , əşyaları uşaqlardan daha uzaq məsafəyə qoyun , beləliklə övladınız etməkdə olduğu hrəkətdən uzaqlaşaraq , sizə doğru addım atmaq məcburiyyətində qalacaq. Arzu etsəniz cibli alət önlüyü alıb mükafatları daima üzərinizdə daşıya bilərsiniz. Belə halda övladınız istədiyi mükafatı asanlıqla əldə edəcəyini və çox təlimat yerinə yetirmədən mükafatının verildiyini öyrənəcək.

Mükafatların istifadəsi və müəllimlə uyğunlaşdırılması bu tədris programının əvəzedilməz ilk addımıdır. Öyrənməyə hazır olmağı üçün uşağın müəllimə həvəslə yanaşması məntiqlidir. Programın ilk mərhələsində uşağdan tələb etmək çox tezdir. Uyğunlaşdırma etdiyiniz zaman çətinlik çəkirsinizsə , istifadə etdiyiniz mükafatları bir daha dəyərləndirməlisiniz və mühitin mükafatlarla uyğunlaşdığından əmin olmalısınız.

Bəzi uşaqlarda (çalışdığım uşaqların təxminən yarısı) uyğunlaşdırma etmək çox asandır, buna görə də onlarda öyrənmək nisbətən daha asan başlaya bilir. Uşaq bir dəfə sizinlə və ya müəllimiylə və ya terapistiylə ünsiyyət qurmağa başlasa və münasibətdə özünü xoşbəxt his etsə demək olar ki, artıq qarşılıqlı çalışmağın tam vaxtıdır. Televizorda baxdığı şey haqqında danışaraq və ya uşağı qıdıqlayaraq, qucağınızda atıb tutaraq və ya mahnı oxuyaraq işə başlaya bilərsiniz. Daha az üstünlük verilən əşyalar və fəaliyyətlərlə daha effektiv mükafatları uyğunlaşdırmaq xüsusiylə əhəmiyyətlidir. Misal olaraq, sallanmağı sevirsə lakin insanların nəğmə söyləməyi xoşlamırsa , iki fəaliyyəti uyğunlaşdırmaq, gələcəkdə “nəğmə söyləməyə” daha çox üstünlük veriləcək fəaliyyət olmağını dəstəkləyəcək.

# TƏLƏBLƏRİNİZ YÜKSƏK OLMASIN

Uşağınızla rahat münasibət qurduğunuzu kəşf etdikdən sonra, ilkin mərhələdə tələbləriniz yüksək olmamalıdır. Rahat ünsiyyət inkişaf etdirilən uşaqlarla çalışan insanlarda müşahidə etdiyim ən böyük səhv olduğundan daha artıq və sürətli tələblərin dəyişdirilməsidir. Çalışma başladığı zaman ( uşaq xoşbəxt halda çalışma mühitinə yönəlirsə , çalışmağa başlanılmalıdır), uşağın əslində çalışdığını bilməməsi çox vacibdir. Əgər uşaq təbii mükafatlarla çalışma arasındakı keçidi fərqində olsa , nəticə əldə etmək çətin olar.



Bəs çalışma vaxtının başladığına necə qərar verə bilərik? Tələblərinizi yavaş-yavaş təqdim etdiyinizdə uşağın davranışlarını müşahidə etməyiniz önəmlidir. Hər hansı bir istək ortaya qoymadan öncə uşağın çalışma mühitində ən az bir neçə dəqiqə uyğun bir şəkildə oturmağı önəmlidir. Uşaq sizin səsinizdən, eyni zamanda qollarına və kürəyinə nəvazişlə toxunmağınızdan narahat olmamalıdır. İşə başlayacağınız mərhələ, övladınızın arzu etdiyi hər hansı bir mükafatı istəməyi və ya işarət etməyi öyrənməsidir, yəni övladınızdan bu davranışı göstərməyini istəyəcəksiniz. Elə isə övladınızın ən sevdiyi əşyayla başlayın. Bu seçim sizə uşağınızın istəklərini tələb etməsini asanlaşdıracaq zəmin hazırlayacaq , mühit mükafatlarla kifayət qədər uyğunlaşdığında çalışmalara başlanmalıdır. Bəzən oyuncaqları istifadə edərək təqlid çalışmalarına , birəbir bənzər əşyaları uyğunlaşdırmağa və asan pazlları tamamlamağa yönələ bilərsiniz. Övladınızın dəyərləndirmə (müşahidə) nəticələrini nəzərə alaraq , tamamlamaq üçün son dərəcə asan tələblər təklif edə bilərsiniz. Bunun məqsədi uşağa mükafat əldə etməyin nə qədər asan olduğunu göstərərək , onu öyrənməyə həvəsli hala gətirməkdir.

# DƏYİŞƏN NİSBƏTLİ MÜKAFAT PROQRAMI



Mükafatlarla uyğunlaşdırma və kiçik istəklər üzərində çalışarkən , dəyişən nisbətli mükafatlar proqramı (DN) nə olduğunu bilərək irələmək önəmlidir. DN , mükafatlandırmalar arasında övladınızın göstərdiyi doğru reaksiyaların ortalamasıdır. İlk zamanlar heç bir şey tələb etmədən mükafatlandırmanız zəruridir. Sonra , mərhələ-mərhələ hər doğru reaksiya üçün mükafat verərək, tələblərinizin miqdarını artıracaqsınız. Buna "davamlı mükafatlandırma proqramı" deyilir. Sonra DN proqramı tətbiq edəcəksiniz.

Davamlı mükafatlandırma proqramının əksinə DN daha praktikdir, çünkü uşaq mükafatın nə zaman veriləcəyini bilməz, ancaq istənilən halda, güclü mükafat təqdim edilmədən əvvəl , sadəcə bir neçə komanda tələb edə bilərsiniz. Buna bənzər proqramların irələyən vaxtlarda , uşaqlarda güclü və davamlı olaraq davranış inkişaf etdiyini görəcəksiniz.

DN proqramı yetkin şəxs tərəfindən planlanır və irələyən zamanlarda əlavə edilərək artırılır. Çalışma seansı içərisində təxminən reaksiya sayı ikidir, ikili DN nin mənası, mükafat vermədən əvvəl uşaqdan bir, iki, üç və ya dörd bacarığı yerinə yetirməsidir. Hər bir bacarıq seti "ortalama – mükafatlandırma " adlandırılır. İlk ikili DN istifadə edərək əmələ gələcək "ortalama – mükafatlandırma ", mükafatlandırmadan əvvəl üç ola bilər, elə isə bir sonrakı mərhələdə " ortalama – mükafatlandırma" mükafatlandırmadan əvvəl yalnız bir təlimat verə bilərsiniz. Misal olaraq, uşaq üçlü DN proqramındadırsa, gücləndirmədən əvvəl uşaq bir ortalama-mükafatlandırma- nisbət setində sadəcə iki bacarıq yerinə yetirməsi hədəflənir. (4+2 bacarıq / 2 mükafatlandırma = 3) . Belə halda ortalama üç olur.

Üçlü DN ilə ortalama – mükafatlandırma setinə nümunə verək. Çalışmağa başlamadan əvvəl uşağa mükafat olaraq bir cips verin. Ardından " Burnuna toxun " deyin – uşaq təlimata tabe olur. (reaksiya bir). Fincanı göstərib "Bu nə"? deyin – uşaq uyğun bir tərzdə reaksiya verər. (reaksiya iki). Bir it şəklini işarət edib, uşağa nə olduğunu soruşsanız, uşaq etiraz etmədən " it" deyə cavab verəcək. ( reaksiya üç). Ayağa qalx desəniz, uşaq ayağa qalxacaq (reaksiya dört). Ardından uşağa , batutda hoppanacağınızı bildirin.( hoppamanın o uşaqda güclü mükafat olduğunu fərz edirik). Belə hallarda ortalama mükafat dörd ədəddir. Uşaqla çalışan təlimçi uşağın əlini tutaraq batuta gedir və təlimçi uşağın əlindən yenə tutaraq batutda hoppandırır. (mükafat). Ardından təlimçi ikinci ortalama- mükafatlandırmanı başladar və mahnı oxuyar: "Mini mini bir quş..." və uşaq boşluğu doldurar "yataqda"(reaksiya bir). Təlimçi uşağı batut dayandırır və "hoppan" deyər.( reaksiya iki).

Ardından uşaq hoppanma mükafatını əldə edər. Burada ortalama – mükafatlandırma sayı ikidir. Misal olaraq verilən bu mükafat proqramında , mükafatlar ümumi ortlaması , bir uşaq üçün DN üç mükafat deməkdir.artırılmalıdır, tək bir seansla artırılmamalıdır.



DN qeydi almaq , uşağınız yaxşı nəticə göstərsə tənzimləmə etməyinizə köməklik göstərəcək və çalışma stolunda problem davranışları həll etməyiniz üçün yaxşı bir metod olacaq. İstər valideynlər, istərsə də təlimçilər uşaqdan həddindən artıq çox şey tələb etdiklərinin hər zaman fərqində olmaya bilərlər. İntensiv təlim zamanlarında uşaqların göstərdikləri problem davranışlar , demək olar ki, bu vəziyyətə bir işarədir. Yetkin şəxslər , uşağa bir şey öyrətdiklərini və onlarla oyun oynadıqlarını zənn etsələrdə , əslində oynadıqları oyunlar mükafatsız tələblərdən ibarətdir. DN yetkinləri, bacarıqlar istiqamətində tutar, uşaqlardan gözlədikləri tələblərin fərqində olmalarını dəstəkləyər.

Bu kitabçada , uşağınızın öyrənməyinə dəstək verərkən, mükafatlandırmanı hansı formada təyin edəcəyinizi və işləyəciyinizi göstərər. Mükafatlandırma , bu təlim proqramında o qədər önəmlidir ki, uşağınız gün ərzində hər hansı bir “AFƏRİN” dən daha çoxuna ehtiyacı olduğunu başa düşmədiyiniz təqdirdə , verəcəyiniz təlim uğursuz olacaq.
Bəzi təlimçilər , mükafat olaraq qida və ya video istifadə etdiklərini müşahidə etmişik. Unutmamalısınız ki, mükafatı sadəcə yetkinlər deyil, uşaqlarda təyin edə bilər. Ayrıca müəllimlər siniflərində oyuncaqların və ya videoların digər uşaqlar üçün diqqət yayındırıcı olduğundan və bütün gün ərzində bir tək uşağa jelibon verməyin ədalətli olmamasından şikayət edirlər. Təəssüf ki, mükafat qavramını hər kəsin anlayıb mənimsəməsini təmin etmədiyimiz zaman , təlim proqramında ilərləmək mümkün deyil.